*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 232-239*

https://doi.org/10.62837/2026.2.232

**MUSAYEVA NƏRGIZ ƏLIKIŞI QIZI**
***Nəsimi adına Dilçilik İnstitutunun dissertantı***

# EKOLOJİ DİSKURSUN LİNQVİSTİK ASPEKTLƏRİ

**Xülasə**

*Məqalədə ekoloji diskursun linqvistik aspektləri şərh olunur. Müasir dövrdə ekoloji problemlərin qlobal xarakter alması, aktuallaşması bu problemlərin yalnız təbiət elmləri deyil, həm də humanitar və sosial elmlər kontekstində araşdırılmasını zəruri edir. Bu baxımdan dil ekologiyası və ekoloji diskurs anlayışları ön plana çıxır. Ekoloji diskurs cəmiyyətin təbiətə münasibətinin dil vasitəsilə ifadə olunma formasıdır və onun linqvistik xüsusiyyətlərinin təhlili ekoloji şüurun formalaşmasında mühüm rol oynayır. Ekoloji diskurs ətraf mühit, təbiət, ekoloji problemlər və insan – təbiət münasibətləri haqqında yaranan mətnlərin və nitq aktlarının məcmusudur. Bu diskurs elmi, publisistik, siyasi və gündəlik nitq səviyyələrində reallaşır və ideoloji məzmun daşıyır. Ekoloji diskursun əsas məqsədi ekoloji problemlər barədə məlumat vermək, xəbərdarlıq etmək və cəmiyyətdə təbiətə qarşı məsuliyyət hissini, ekoloji etikanı, ekoloji mədəniyyəti formalaşdırmaqdır. Ekoloji diskursun əsas linqvistik göstəricilərindən biri onun leksik-*semantik *zənginliyidir. Bu diskursda terminoloji leksika (iqlim dəyişikliyi, biomüxtəliflik, ekosistem, karbon emissiyası) geniş yer tutur. Eyni zamanda tənqidi məzmun və emosional sözlər (təhlükə, böhran, məhv, qoruma) vasitəsilə oxucuya və ya dinləyiciyə təsir göstərilir. Bu cür mətnlər ekoloji problemləri cəmiyyət üçün aktuallaşdırır.*

***Açar sözlər: ekolinqvistika, ekoloji, diskurs, nəzəri baxış, paradiqma, problem***

***Мусаева Наргиз Аликиши***
***Аспирант Института языкознания им.***

# ЛИНГВИСТИЧЕСКИЕ АСПЕКТЫ ЭКОЛОГИЧЕСКОГО ДИСКУРСА

**РЕЗЮМЕ**

*В статье интерпретируются лингвистические аспекты экологического дискурса. Глобальный характер, актуальность и актуальность экологических проблем в наше время обусловливает необходимость исследования этих проблем не только в естественных науках, но и в контексте гуманитарных и социальных наук. В связи с этим на первый план выходят понятия языковой экологии и экологического дискурса. Экологический дискурс является формой выражения отношения общества к природе через язык, а анализ его языковых особенностей играет важную роль в формировании экологического сознания.*

*Экологический дискурс - это совокупность текстов и речевых актов об окружающей среде, природе, экологических проблемах и отношениях человека с природой. Этот дискурс происходит на уровне научной, публицистической, политической и повседневной речи и содержит идеологическое содержание. Основной целью экологического дискурса является информирование, предупреждение и формирование чувства ответственности за природу, экологическую этику и экологическую культуру в обществе. Одним из основных лингвистических показателей экологического дискурса является его лексико-семантическое богатство. Этот дискурс распространяется на терминологическую лексику (изменение климата, биоразнообразие, экосистема, выбросы углерода). При этом критический контент и эмоциональные слова (опасность, кризис, разрушение, защита) влияют на читателя или слушателя. Такие тексты делают экологические проблемы актуальными для общества.*

***Ключевые слова: эколингвистика, экология, дискурс, теоретическое видение, парадигма, вызов***

***Musayeva Nargiz Alikishi***
***PhD student at Nasimi Institute of Linguistics***

**Linguistic aspects of ecological discourse**

**Abstract**

*The linguistic aspects of ecological discourse are interpreted in the article. The global nature, urgency, and urgency of ecological issues in modern times necessitates the investigation of these problems not only in the natural sciences, but also in the context of the humanities and social sciences. In this regard, the concepts of language ecology and ecological discourse come to the fore. Ecological discourse is a form of expression of society's relationship to nature through language, and analysis of its linguistic features plays an important role in the formation of ecological consciousness. Environmental discourse is an aggregation of texts and acts of speech about the environment, nature, ecological problems, and human – nature relations. This discourse takes place at the scientific, publicistic, political, and everyday speech levels and contains ideological content. The main purpose of ecological discourse is to inform, warn, and shape the sense of responsibility for nature, ecological ethics, and ecological culture in society. One of the main linguistic indicators of ecological discourse is its lexical-semantic richness. This discourse extends to terminological lexics (climate change, biodiversity, ecosystem, carbon emission). At the same time, critical content and emotional words (danger,*

*crisis, destruction, protection) affect the reader or listener. Such texts make environmental issues relevant to society.*

***Keywords: ecolinguistics, ecology, discourse, theoretical vision, paradigm, challenge***

Diskurs haqqında Azərbaycan dilçiliyində və dünya dilçiliyində fərqli baxışlar mövcuddur. Belə ki, bəzən diskursla mətn eyniləşdirilir. Halbuki diskurs nitq faktıdır, ancaq müasir tədqiqatlarda, xüsusilə koqnitiv aspektli araşdırmalarda bütün mətnlər çox zaman diskursun adekvatı kimi nəzərdən keçirilir. Əslində isə, diskurs bərpa olunan mətnlər kimi tədqiq edilməlidir. Yəni diskurs şifahi nitqlə bağlıdır, buna görə də yazılı mətnlər onların şifahi variantlarının adekvatlarıdır. Müasir dilçilikdə *diskurs* termini həm də müxtəlif janrlar (yəni bədii, elmi, publisistik və s.) mənasında da işlədilməkdədir.

Azərbaycan dilçiliyində bu sahədə tədqiqat aparan alimlərdən biri olan Azad Məmmədov yazır ki, diskurs bütün səviyyələrə aid dil vasitələrinin köməyi ilə təşkil olunur. Bu dil vasitələri hadisələrin zaman və məkan müstəvisində yerləşdirilməsi funksiyası ilə yanaşı, ümumilikdə, diskursda əlaqəliliyi təmin edən tematik inkişafda iştirak edir. Mahiyyət etibarilə, mətn qəbuledicisi üçün bu göstərici rolunu oynayan bu vasitələr müxtəlif informasiya yükünə malikdir və nəhayət, insanın müəyyən həcmdə informasiyanı öz yaddaşında saxlamaq qabiliyyətini nəzərə alaraq, diskursda qlobal əlaqəliliyi təmin edən koqnitiv funksiya daşıyır [2, s.64]. Hər hansı bir diskursda manipulyasiya strategiyası mühüm faktlardan biri sayılır. Buna görə də V.İ.Karasik manipulyativ strategiyanın təsnifatını verir [3, s.69]. Yəni diskurs janrlarında manipulyativ strategiyalar müxtəlifdir və rəngarəngdir. Ekoloji diskursda da bu manipulyasiya strategiyasından geniş istifadə olunur.

Ekoloji diskursda daha çox ekoloji problemlər aktuallıq kəsb edir. Bu diskursda müxtəlif dil modelləri ilə ekologiyanın gözlənilməsi, ətraf aləmin çirkləndirilməsi, biomüxtəlifliyin təbii harmoniyasının pozulması, qlobal və lokal ekoloji fəlakətlərin doğuracağı gələcək təhlükələr şərh olunur. Ekoloji diskursun koqnitiv aspektlərinə toxunsaq, burada ilk növbədə, təbiət və ekologiya konseptlərini araşdırmalıyıq. Bu konseptlərin koqnitiv analizi həmin konseptlərin nüvə və freymlərinin nəzərdən keçirilməsini tələb edir. "Təbiət" konsepti insan şüurunda geniş mənada təbiətlə bağlı bütün anlayış və ifadələrin bir konseptual model əsasında dərk olunmasını ifadə edir.

Adətən ekoloji məzmunlu diskursda *ekoloji fəlakət, emissiya problemləri, qlobal istiləşmə, biomüxtəliflik amilləri, ekoloji biliklər, texnogen amillər, ekosistemin çirklənməsi, atmosferin kirliliyi, ətraf mühitin mühafizəsi, ekoloji mədəniyyət, ekologiya problemləri, antropogen təsirlər, ekoloji şüur, ekoloji siyasət, ekoloji standartlar, təmiz ekoloji mühit, ekoloji mühitin mühafizəsi, ekoloji tarazlıq,*

*ekoloji təfəkkür, yaşıl enerji zonası, ekoloji terror, ekoloji disbalans, mədəniyyətin ekologiyası, ekoloji təhsil, estetikanın ekologiyası* tipli sintaktik vahidlər geniş şəkildə işlədilməkdədir.

Ekoloji diskurs neoliberal idarəetmə anlayışının bəzi əsas cəhətlərini özündə birləşdirmişdir: dövlətin səlahiyyət sahəsindən geri çəkilərək məsuliyyətin vətəndaş cəmiyyəti və iqtisadi aktorların xeyrinə ötürülməsi, derequlyasiya, bazarın özünü tənzimləmə qabiliyyətinə inam, eləcə də fərdlərdə ekoloji baxımdan məsuliyyətli davranışın təşviqi. Əslində, 1970-ci illərdən etibarən ekoloji modernləşmə ideyasından ilhamlanan diskurslar və siyasətlər dominant çərçivə kimi meydana çıxmışdır. Ekoloji modernləşmə, eləcə də ideoloji baxımdan ona yaxın olan dayanıqlı inkişaf diskursu, ətraf mühitin qorunması ilə iqtisadi sistemlərin fəaliyyət göstəriciləri arasında ziddiyyət (kompromis) mövcudluğunu inkar edir. Bu, məsələn, məşğulluq səviyyəsi ilə ətraf mühitin mühafizəsi qanunları arasındakı münasibətdə özünü göstərir" [10, s.68].

A.V.Zaytseva yazır ki, ekoloji diskurs – mürəkkəb kommunikasiyalı nitq hadisəsidir. Bir tərəfdən, bu, sosial ünsiyyətin bir növüdür və onun əsasında insanların müəyyən tarixi-mədəni kontekstdə nitq və düşüncə fəaliyyəti dayanır; bu fəaliyyət ümumi mövzu – ekologiya və ətraf mühitin qorunması – üzərində qurulur və bu mövzular əsas konseptlər rolunu oynayır. Digər tərəfdən, ekoloji diskurs, ümumi mövzu ətrafında birləşmiş və müəyyən məqsədin həyata keçirilməsinə yönəlmiş ekoloji mətnlər toplusudur [8, s.5].

Ekologiya ilə bağlı termin və anlayışlar bizə, ilk növbədə, ekosistem haqqında geniş informasiya verir. Müxtəlif məzmunlu ekoloji mətnləri birləşdirən ümumi bir cəhət ondan ibarətdir ki, həmin mətnlərin koqnitiv məzmunu ekoloji şüurun təşviqini ifadə edir. Müasir dövrdə media diskursunda aparılan ekoloji təşviqatlar ekosistemin qorunmasına yönəlmişdir. Həmin ekoloji çağırışlar müasir dünyada ekoloji vəziyyətlə bağlı həyəcan siqnalını əks etdirir. Hal-hazırda müxtəlif diskurslara aid mətnlərdə irəli sürülən ekoloji konsepsiyaların əsas mahiyyəti ondan ibarətdir ki, insanlar ekoloji problemlərin mahiyyətini vaxtında dərk edə bilsinlər və təbii fəlakətlərin qarşısını önləmək üçün lazımi tədbirlər görsünlər. Yəni ekoloji diskursun əsas qayələrindən biri məhz insanları ekoloji problemlərin həlli üçün, təbiəti qorumaq üçün birliyə, həmrəyliyə təşviq etməkdir. Ekoloji diskursun ən mühüm konsepsiyası, yaşıl dünya ideyası məhz dünyanın qorunmasını hədəfləyir. Çünki təbii resursların kütləvi məhv edilməsi, texnologiyanın sürətli inkişafı ekosistemin tədricən zədələnməsinə səbəb olur. Bəzən təbiət qanunları cəmiyyət qanunları ilə harmoniya təşkil etsə də, bir çox halda onlar bir-birinə adekvat ola bilmir.

Dilçilikdə kifayət qədər yaxşı məlum olan linqvistik faktların, hadisələrin və proseslərin öyrənilməsinə dair müxtəlif yanaşmalar siyahısına — fəlsəfi, tarixi, məntiqi, psixoloji, sosiolinqvistik, kulturoloji, gender və digər yanaşmalarla yanaşı

— bizim fikrimizcə, ekoloji yanaşma da əlavə edilməlidir. Tədqiqatın göstərdiyi kimi, bu yanaşma sözün semantik xüsusiyyətlərinə "özünəməxsus" baxış bucağına malikdir, ümumi konseptual dil mənzərəsi çərçivəsində müxtəlif linqvistik hadisələrin təhlilinə "öz" yanaşmasını ortaya qoyur. Ekoloji yanaşmanın xüsusiyyəti dilin inkişafının müəyyən bir dövründə bütün dil proseslərinin parametrləşdirilməsinin əsas prinsipi ilə bağlıdır: pozitivləşmə // neqativləşmə, dəyərlər // antidəyərlər, bu da şübhəsiz ki, dilin müsbət dinamikasına faydalı təsir göstərir" [4, s.10].

Dil ilə onun istifadəçilərinin, daşıyıcılarının təbii mühiti arasındakı qarşılıqlı münasibətlər mövzusu tarixən qeyri-bərabər inkişaf etmişdir. Sadələşdirilmiş determinist baxışlar — məsələn, "təbiətə yaxın yaşayan tayfalar öz təbii dillərini danışacaq" kimi yanaşmalar — və əsas axın dilçiliyin ayrı-seçkilik ideologiyası (məsələn, N.Xomskinin müstəqillik hipotezi) bu sahədə irəliləyişi əngəlləmişdir. E.Sepirin mülahizələrindən məlumdur ki, "təbiət" və "landşaft" anlayışları özləri mədəni konstruksiyalardır və təbii hadisələr haqqında bütün diskurslar yüksək dərəcədə seçicidir. Bu səbəbdən, bu sahədə sadə korrelyativ izahlar yox, daha mürəkkəb və çoxsəviyyəli yanaşmalar tələb olunur" [11, s.5].

Müasir dövrdə *yaşıl enerji, ekoloji etika* anlayışları artıq gündəlik həyat tərzinə çevrilməkdədir. Çünki qlobal ekoloji təhlükələr artdıqca yaşıl enerjiyə tələbat artır və proses hər bir xalqın leksikonunda da özünə yer tapır. Müxtəlif zamanlarda fərqli ölkələrdə baş verən Yaşıllar hərəkatı qlobal ekoloji fəlakətlər fonunda baş verir. Hətta son dövrlərdə mətbuatda *yaşıl həftə* ifadəsi də işlədilməkdədir. *Yaşıl həftə* dedikdə həmin həftə ərzində ekoloji maariflənmə ilə bağlı müxtəlif aksiyaların keçirilməsi nəzərdə tutulur. Hətta son dönəmlərdə media diskursunda *yaşıl bina, yaşıl tikinti* terminləri işlədilir. Dildə *yaşıl plan* ifadəsi də var. Bu ifadə dilin təbii ekosistemi necə əks etdirdiyini birbaşa ifadə edən linqvistik vahidlərdən sayıla bilər. Müasir həyatımızda aktuallaşan *yaşıl enerji* qloballaşmanın və ekoloji problemlərin kəskinləşdiyini göstərən ifadələrdən sayıla bilər. Müasir ekoloji böhran ekolinqvistik paradiqmanın formalaşması və inkişafının mühüm motivlərindən biri olmuşdur. Təbiəti qoruma aksiologiyası antroposentrizm dünyagörüşü ilə qarşıdurma yaratmış, bəşəriyyətin sağ qalmasına yönəlmiş ekoloji etikanın prinsipləri antroposentrizm ideallarından daha geniş spektri əhatə etmişdir. Bu prinsiplər insan cəmiyyətində yeni dəyərlərin, yeni prioritetlərin müəyyənləşdirilməsinə xidmət edir və insan fəaliyyətinin müxtəlif sahələrinin yeni mövqelərdən tənzimlənməsini nəzərdə tutur [5, s.87].

Ekoloji ehtiyaclar sosial subyektlər tərəfindən həmişə tam şəkildə dərk olunmur. Lakin insanlar bu ehtiyacları dərk etdikdə, onlar müvafiq ekoloji maraqlara çevrilir. Əgər ekoloji ehtiyacların təmin olunması təbiətin öz elementləri ilə bağlıdırsa, ekoloji maraqlar artıq müxtəlif sosial və dəyər-normativ sistemlərə yönəlir. Bu sistemlər "insan — cəmiyyət — təbiət" münasibətlərini tənzimləyir və bu

münasibətlər bir sosial-ekoloji sistem kimi işləyir. Belə sistemin ayrılması, sosial və təbiət qarşılıqlı təsir proseslərini modelləşdirməyə və nəzarət etməyə, həmçinin fənlərarası inteqrativ yanaşma baxımından mürəkkəb prosesləri öyrənməyə imkan verir [9, s.31].

Müasir siyasi diskursda da *bərpa olunan enerji* terminindən də intensiv şəkildə istifadə olunmaqdadır. Bu termin təbii mənbələrdən alınan enerji anlamındadır. Bu gün ekolinqvistikada iki əsas istiqamət mövcuddur. Birinci istiqamət ekoloji linqvistika adlanır. Bu istiqamət ekologiyaya əsaslanır və ekoloji anlayışları, prinsipləri və tədqiqat üsullarını dilə və dilçiliyə tətbiq edir. Burada dillərin bir-biri ilə əlaqəsi və qarşılıqlı təsiri öyrənilir. İkinci istiqamət isə dil ekologiyasıdır**.** Bu istiqamət dilçilik elminə əsaslanaraq, ekoloji mövzuların dildə necə ifadə olunduğunu araşdırır. Dillər və mətnlər onların ekoloji baxımdan uyğunluğu nöqteyi-nəzərindən təhlil edilir və dilin ətraf mühitlə bağlı aktual problemlərin ifadəsindəki rolu öyrənilir. Buraya insanla təbiət arasındakı münasibətlərin dildə əks olunmasının tədqiqi də daxildir [7, s.259].

Şüur insanın özünü dünyadan ayırması və onu dərk etməsi qabiliyyəti olsa da, onu təfəkkürlə eyniləşdirmək olmaz. Təfəkkür insanın düşünmək, anlayışlar yaratmaq, mühakimələr yürütmək və nəticələr çıxarmaq qabiliyyətidir. Ekoloji şüur isə ictimai şüurun bir formasıdır. O, insanla təbiət arasındakı münasibətləri əks etdirən ideyaları, baxışları və davranış motivlərini əhatə edir. Ekoloji şüur cəmiyyətlə təbiət arasında tarazlığın qorunmasına yönəlmiş davranış norma və prinsiplərinin formalaşmasına xidmət edir. Təfəkkür ekoloji şüurun formalaşmasında çox mühüm rol oynayır. Çünki idrak prosesi insanın təbiəti necə qavradığını, ona necə təsir etdiyini və onu necə anladığını müəyyənləşdirir [7, s.259]. Adətən, ekoloji diskursda insanların təbiətə qarşı münasibətlərinin müxtəlif aspektləri inikas olunur. Bu diskursda təbiətə qarşı münasibətdə insanların həssas davranış sərgiləməsi təbliğ olunur.

Təbiətdə baş verən proseslərin məcaziləşərək insan cəmiyyətindəki müəyyən hadisələrə transformasiya edilməsi bütün dillərdə müşahidə olunur. Beləliklə də, dildə və nitqdə təbiətlə cəmiyyətin harmoniyası, balanslılığı və analoji proseslərin adekvatlığı ifadə olunur. Məsələn, külək təbii bir hadisənin nominasiyasını ifadə edən leksemdir. Ancaq siyasi diskursda *inqilab küləyi* ifadəsi hər hansı bir ölkədə baş verən gərgin ictimai-siyasi gərginliyi ifadə edir. Yəni bu ifadə metaforik olaraq təbiət hadisəsinin cəmiyyətdəki sosial-ictimai gərginliyi bildirmək üçün transformasiya olunan siyasi bir terminə çevrilmə prosesidir. Hər hansı bir sosial gərginliyi ifadə edən bu linqvistik vahid koqnitiv semantikasında təbiət hadisəsini deyil, cəmiyyət hadisəsini ifadə edir. Eləcə də siyasi diskursda *inqilab dalğası* ifadəsi geniş şəkildə işlədilir. Məlumdur ki, *dalğa* iri su hövzələrində su səthinin qabarması ilə bağlı olan bir təbii prosesin adıdır. Ancaq *inqilab dalğası* ifadəsində *dalğa* leksemi tamamilə fərqli bir anlamda, siyasi-ictimai funksiyada işlənilir. Siyasi

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 232-239*

diskursda bu ifadə metaforik olaraq xalq hərəkatını bildirir. Bu cür ifadələr müxtəlifsistemli dillərdə müşahidə olunur. Deməli, tipologiyasından, mənşəyindən asılı olmayaraq bütün dillərdə metaforlaşma hadisəsi dil universaliləri kimi çıxış edərək dil və təbiət, insan və təbiət münasibətlərinin interaktiv inteqrasiyasını inikas etdirmək gücünə malikdir. Belə ifadələrdən biri də *siyasi fırtına*-dır. *Siyasi fırtına* ifadəsi metaforik olaraq hər hansı bir ölkədə baş verən siyasi gərginlik prosesinin bildirir. Təbiət hadisələrinin adlarını bildirən bu tipli sözlərin siyasi diskursa gətirilməsi dilin dünyanın ümumi mənzərəsini əks etdirmək potensialı güclənir, dilin informasiyavermə qabiliyyətini göstərir. İctimai-siyasi şüura birbaşa təsir edən bu tipli təbiətlə bağlı olan ifadələr semiotik olaraq siyasi diskursun müxtəlif aspektlərini ifadə edir. Eləcə də *qara buludlar* ifadəsinə nəzər salaq. Nümunə: "*Tehranı qara buludlar bürüyür. Heç kəs deyə bilməz ki, müharibə olmayacaq, istənilən məcaraçı addıma gedə bilərlər"* [13]. Media diskursuna aid olan bu ifadə bu mətndə siyasi diskursa aid funksiya daşıyaraq metaforik şəkildə siyasi gərginlik anlamı bildirir. Burada da təbiət haisəsinin adını bildirən ifadə analoji olaraq siyasi termin kimi işlənmişdir. Bələliklə də, bu tipli ifadələrin mövcudluğu bir daha sübut edir ki, təbiət insan münasibətləri müxtəlif diskrus nümunələrində öz əksini tapır.

Son dövrlərdə yaranan yeni anlayışlardan biri də *ekoturizm* anlayışıdır. Ekoturizm təbiətlə insanın təmasını özündə ehtiva edən bir termindir [1]. E.V.İvanova yazır ki, "insanın ətraf aləmə münasibətini və onun ən təhlükəli təbii hadisələrdən biri olan təbii fəlakətləri qavramasını göstərmək məqsədilə mətbuatda **"**Təbii fəlakət – müharibə / mübarizədir**"** metaforik modelinin təqdimatını nəzərdən keçirəcəyik. Metaforik modeli təsvir etmək üçün onun aşağıdakı əlamətlərini səciyyələndirəcəyik:

1.ilkin anlayış sahəsi;
2.yeni anlayış sahəsi;
3.ilkin anlayış sahəsi üçün ən səciyyəvi situasiyaları əks etdirən tipik ssenarilər;
4.müvafiq anlayış sahəsini strukturlaşdıran və bu modelə aid olan freymlər;
5.tipik slotlar, yəni freymin elementləri;
6.ilkin və ikinci dərəcəli mənaları əlaqələndirən komponent" [7, s.36].

Media diskursunda *ekoterror* sözü tez-tez işlənərək emosional çağırış motivləri ifadə edir. Məsələn: "*Mənfur qonşularımız uzun illər işğal altında saxladığı torpaqlarımızda təbiətə qarşı da düşmən münasibəti sərgiləyiblər. Yeraltı və yerüstü sərvətlərimizin məqsədli şəkildə talan edilməsi nəticəsində bölgədə ekoloji tarazlıq pozulub və Azərbaycan ekosisteminə ciddi ziyan dəyib*" [12]. Ekologiyaya aid makrokonseptlər və mikrokonseptlər bir sistem təşkil edərək ekologiya konseptinin mahiyyətini yaradır. Təsadüfi deyil ki, müasir ingilisdilli mətnlərdə *green ideas* (hərfi mənada "yaşıl ideya") konsepsiyası ekoloji məzmunlu ideyaları özündə ehtiva edir. Yəni ingilis dilində *yaşıl* sözünün əsas assosiasiyalarından biri məhz ekologiyadır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Həsənova, S.M. "Ətraf mühit, ekoloji maarifləndirmə və ekoloji tərbiyə", Bakı, "ADPU". 2013. - 332 s.
2.Məmmədov, A. Dilçiliyin müasir problemləri. – Bakı: ADU nəşriyyatı, – 2008. – 86 s.
3.Карасик, В.И. Языковой круг: личность, аспекты, дискурс. - Волгоград: Перемена, 2002. - 477 с.
4.Фомина, О.А. Концептуально - терминологические пространство лингвистической экологии: когнитивный и функционально –семантический аспекты: Автореф. на соиск. учёной степ. канд. филол. наук. Кроснадар, 2011. 21 с.
5.Ионова, С.В. Основные направления эколингвистических исследований: зарубежный и отечественный опыт // Вестник Волг. Гос. Унив.-та,Серия 2, 2010, №1(11). с.86-92.
6.Иванова, Е. В. Эколингвистика и роль метафоры при описании экологических проблем. file:///C:/Users/LENOVO/Downloads/ekolingvistika-i-rol-metafory-pri-opisanii-ekologicheskih-problem%20(3).pdf
7.Иванова, Е.В. Экологическое сознание и эколингвистика. Вестник ЧКГУ, 2012. с.252-262.
8.Зайтсева, А.В. Типология текстов экологический дискурса ФРГ. Автореф. на соиск. учёной степ. канд. филол. наук. Смоленск, 2015, 26 с.
9.Пахомов, Ю.Н. Экочеловек как субъект социоприродного развития. Автореферат диссертации на соискание ученой степени доктора социологических наук. Санкть-Петербург. 2003. 53 с.
10.Fellow, Dario Colombo Disfor. Environment and neoliberalism: a critical discourse analysis of three Italian cases. ESSACHESS. Journal for Communication Studies, vol. 7, no. 1(13) / 2014: p.63-82.
11.The Ecolinguistics Reader. Language, Ekology and Environment / Edited by Alwin Fill and Peter Mühlhausler. London and New York, Continuum, 2001. 296 p.
12.https://xalqqazeti.az/az/siyaset/216920-qonsu-olkenin-ekoterror-uz-qaraligi-da-var#:~:text
13.https:// gunaz.tv/az/ post/20822

**Rəyçi: Lalə Qurbanova filologiya elmləri doktoru, dosent**